

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 may 2022-ci il №39 (2650) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyevin Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 22-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gedib.*



Mayın 22-də Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olub.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Görüşdə Prezident İlham Əliyev Şarl Mişelin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirib.

Bu formatda Avropa İttifaqının təşəbbüsü və vasitəçiliyi ilə üçüncü dəfədir ki, görüşün keçirildiyini qeyd edən dövlətimizin başçısı bu görüşün təşkilinə görə Şarl Mişelə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan 5 prinsipin təqdim olunduğunu qeyd edib və bu prinsiplərin sülh müqaviləsinin hazırlanmasında əsas rol oynadığını vurğulayıb.

Dövlətimizin başçısı iki ölkə arasında sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev bu il aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycanın aprelin sonunda sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirdiyini və bu xüsusda danışıqlara hazır olduğunu bir daha qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan 4 minə yaxın şəxsin taleyinə aydınlıq gətirilməsinin vacibliyini bir daha vurğulayıb.

Dövlətimizin başçısı 10 noyabr Bəyanatının bütün müddəalarının Ermənistan tərəfindən icra olunmasının zəruriliyini qeyd edib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Avropa İttifaqının Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə dəstək vermək əzmini bir daha ifadə edib, vasitəçilik səylərini davam etdirəcəyini bildirib və bu formatda keçirilmiş əvvəlki görüşlərin əhəmiyyətinə toxunub. Şarl Mişel Brüsseldə bu formatda görüşdə iştirakına görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

* * *

Mayın 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

**AZƏRTAC-ın materialları əsasında**

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı dünən Brüsseldə Azərbaycan Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri arasında keçirilən görüş barədə məlumat verib. Prezident İlham Əliyev görüş zamanı Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, bu xüsusda Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan beş prinsipin təqdim olunması, iki ölkə arasında münasibətlərin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası ilə bağlı müzakirə olunan məsələlərə toxunub. Azərbaycan Prezidenti üçtərəfli görüşün nəticəsini müsbət qiymətləndirdiyini bildirib.

Dövlətimizin başçısı, eyni zamanda, bu gün Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında Sərəncam verildiyini də qeyd edib.

Prezident İlham Əliyev, həmçinin Zəngəzur dəhlizinin açılması, o cümlədən həm dəmir yolu, həm də avtomobil yolunun çəkilməsi məsələləri ilə də bağlı tərəflərin razılığa gəldiyini bildirib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan üçtərəfli görüş barədə verilən məlumata görə minnətdarlığını ifadə edib və bu görüşdə əldə olunan müsbət nəticələri yüksək qiymətləndirib.

Azərbaycan və Türkiyə prezidentləri bölgədə sülhün tezliklə əldə edilməsinin önəmini vurğulayıblar.

Dövlət başçıları söhbət zamanı ikitərəfli dostluq və qardaşlıq münasibətlərinə dair məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

## Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla görüşdən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel mətbuata açıqlama verib

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.

AZƏRTAC xəbər verir ki, Şarl Mişel açıqlamasında deyib:

- Axşamınız və ya gecəniz xeyir. Bu gün mən Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşə bir daha ev sahibliyi etdim. Bu, bizim bu formatda üçüncü müzakirəmiz idi. Biz Cənubi Qafqazda vəziyyət və hər iki ölkənin Avropa İttifaqı ilə münasibətlərinin inkişafına, habelə sərhəd regionuna əsas diqqəti yönəltdik.

Müzakirə səmimi və məhsuldar oldu, biz bütün məsələləri nəzərdən keçirdik. Bizim humanitar məsələlər, o cümlədən minaların təmizlənməsi və saxlanılanların azad edilməsi ilə bağlı səylərlə əlaqədar ətraflı müzakirəmiz oldu və biz itkin düşmüş insanların taleyinə də toxunduq.

Biz aşağıdakı nəticələrə nail olduq. Sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası dövlətlərarası sərhəddə yaxın günlərdə baş tutacaq. Bu iclasda sərhədin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı bütün məsələlərə toxunulacaq.

Kommunikasiya ilə əlaqədar liderlər nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurəti üzərində razılığa gəldilər. Onlar Azərbaycanın qərb hissəsi ilə Naxçıvan və Azərbaycan ərazisindən Ermənistanın müxtəlif hissələri arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəldilər. Onlar xüsusilə beynəlxalq daşımalar kontekstində sərhəd idarəetmə prinsipləri, təhlükəsizlik, eləcə də gömrük rüsumları və qaydaları barədə razılığa gəliblər və yaxın günlərdə Baş nazirlərin müavinləri bu işi davam etdirəcəklər.

Sülh sazişinə gəlincə, liderlər Ermənistan ilə Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirəni davam etdirmək barədə razılığa gəliblər. Yaxın həftələrdə xarici işlər nazirlərinin başçılıq etdikləri nümayəndə heyətləri bu prosesi davam etdirəcəklər.

Bunun davamı olaraq, mən hər iki liderə müraciətlə vurğuladım ki, zənnimcə, Qarabağdakı etnik erməni əhalinin hüquqları və təhlükəsizliyi məsələsinin həll olunması vacibdir.

Sosial-iqtisadi inkişafa gəlincə, Avropa İttifaqı tərəflərlə birlikdə hər iki ölkənin və onların xalqlarının rifahı naminə iqtisadi inkişafı təşviq etməyə çalışan İqtisadi Məşvərət Qrupunun işini inkişaf etdirəcək. Mən, həmçinin əhalinin uzunmüddətli davamlı sülhə hazırlanmasının vacibliyini də vurğuladım və Avropa İttifaqı öz dəstəyini gücləndirməyə hazırdır.

Biz sıx təmasda qalmağa razılaşdıq və iyul-avqust aylarına qədər eyni formatda yenidən görüşəcəyik. Təşəkkürlər.

# Müdafiə naziri yeni istifadəyə verilən təlim infrastrukturuna baxış keçirib






Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı



cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir standartlara cavab verən hərbi infrastrukturun yaradılması və bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti "Qaraheybət" Təlim Mərkəzində yeni istifadəyə verilən hərbi infrastruktura baxış keçiriblər.

Müdafiə nazirinə məruzə olunub ki, burada müasir döyüş üsullarının praktiki tətbiq edilməsi üçün real şəraitə uyğunlaşdırılmış təlim sahələri inşa olunub.

Bundan başqa müxtəlif növ döyüş texnikasının mürəkkəb relyef və çətin hava şəraitində idarə olunması, eləcə də onlardan atəş açılması üzrə hərbi qulluqçuların praktiki vərdişlərinin təkmilləşdirilməsi üçün məşğələlər keçirilir.

Müdafiə naziri "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun kursantlarının təlim sahələrində nümunəvi çıxışlarını izləyib.

Əvvəlcə atış şəhərciklərində atəş hazırlığı üzrə normativlərin və təlim atış çalışmalarının praktiki icrası nümayiş etdirilib.

Sonra müdafiə naziri tank atış şəhərciyində olub. Məruzə olunub ki, burada Vətən müharibəsində, eləcə də son dövrlərdə aparılan döyüş əməliyyatlarında öyrənilən təcrübələrə əsaslanaraq tankların yaşayış məntəqələrində effektiv tətbiqi üsulları məşq etdirilir.

Daha sonra mühəndis şəhərciyinə baxış keçirilib. Qeyd olunub ki, şəhərcikdə hərbi qulluqçulara müxtəlif tipli mina və döyüş sursatları ilə bağlı ətraflı məlumat verilir. Bundan başqa mühəndis vasitələri ilə mina və partlamamış döyüş sursatlarının aşkar edilməsi, eləcə də onların təhlükəsizlik qaydalarına əməl olunmaqla zərərsizləşdirilməsi üzrə tapşırıqlar icra olunur.

Müdafiə naziri fiziki hazırlıq şəhərciyinin maneələr zolağı (pentatlon) və kəşfiyyat cığırında kursantların məşq prosesini izlədikdən sonra



artilleriya batareyasının komanda müşahidə məntəqəsində olub. Burada kursantlar artilleriya simulyatorlarından atış tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetiriblər.



Sonda müdafiə naziri mərkəzin ərazisində tikintisi davam edən hərbi obyektlərdə aparılan inşaat işlərinin gedişatını yoxlayıb.

General-polkovnik Zakir Həsənov hərbi qulluqçuların döyüş hazırlığının və peşəkarlıq səviyyələrinin daim yüksək səviyyədə saxlanılması, müasir təlim-məşq üsullarının öyrənilməsi və tətbiqi, həmçinin tikinti işlərinin keyfiyyətli aparılması ilə əlaqədar müvafiq tapşırıq və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Efes-2022" çoxmillətli təlimində növbəti mərhələnin tapşırıqları icra olunub



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Respublikasının İzmir şəhərində keçirilən "Efes-2022" çoxmillətli təlimi davam edir.

Beynəlxalq təlimin planına əsasən, hərbi qulluqçular tapançadan, müxtəlif çaplı atıcı silahlardan və pulemyotlardan praktiki atışlar yerinə yetiriblər.

Bundan başqa yaralanan hərbi qulluqçuya ilkin tibbi yardımın göstərilməsi və onun təhlükəsiz şəkildə təxliyə olunması, eləcə də axtarış-xilasetmə əməliyyatları üzrə tapşırıqlar uğurla icra olunub.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Ordunun və



Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçularının cəlb olunduğu beynəlxalq təlim iyunun 9-dək davam edəcək.

# Azərbaycan Ordusunun rabitə hissə və bölmələri ilə kompleks məşqlər keçirildi



Müasir dövrdə yeni texnologiyalara bütün sahələrdə rast gəlmək mümkündür. Günümüzün tələblərini təyin edən innovativ yeniliklərin gündəlik fəaliyyətimizdə özünəməxsus yeri var. İnkişafda olan ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarındakı tərəqqi göz önündədir. Bu inkişaf və tərəqqi ordumuzdan da yan keçmir. Dövlət başçısının orduya olan xüsusi diqqət və qayğısı nəticəsində bu gün ən yeni texnologiyalar qoşunlarımızın arsenalına daxil edilir. Belə ki, Ali Baş Komandanın tapşırığına əsasən, ordumuzun bütün sahələrində olduğu kimi, rabitə və AİS istiqamətində geniş islahatlar aparılır, qoşun növünün daha da təkmilləşdirilməsi üçün fəaliyyətlər planı həyata keçirilir. Aparılan irimiqyaslı islahatlar ordumuzun tam formalaşmasını təmin edir. Rabitə bölmələri müasir tələblərə cavab verən yeni nəsil rəqəmsal rabitə vasitələri ilə təchiz olunur. Rəşadətli ordumuzun rabitə qoşunlarının sərəncamında olan ən yeni aparat və avadanlıqlar müasir tələblərə tam cavab verir.

Dünya inkişaf etdikcə silah və texnikalarda olduğu kimi, rabitə vasitələrinin də qarşısına qoyulan tələblər artır. Əvvəllər rabitənin əsas məqsədlərindən biri səsli radio ilə əlaqə idisə, müasir dövrdə artıq bundan daha da artığı tələb olunur. Hücum və müdafiə əməliyyatlarında qoşunların mobil hərəkəti və çevik yerdəyişməsi zamanı komanda məntəqələri arasında səsli və mətn məlumat ötürülməsi ilə yanaşı, fəal radiomaneələrə qarşıdurma, məlumatların şifrələnməsi, məlumatların qısa vaxtda və böyük həcmdə ötürülməsi, real zamanda videogörüntünün alınması və ötürülməsi, həmçinin düşmən rabitə vasitələrinin susdurulması kimi bir çox tələblərin yerinə yetirilməsi müasir texnikalarla artıq mümkündür. Silahlanmaya qəbul edilən yeni nəsil radiorele rabitə vasitələri əvvəlkilərə nisbətən əhəmiyyətli üstünlüklərə malikdir. Onların kütləsi və ölçüləri kiçik olduğu halda böyük qabaritli rabitə vasitələrinin yerinə yetirdiyi funksiyaları daha səmərəli yerinə yetirir. Enerji tələbatı dəfələrlə azdır. Dağlıq ərazilərdə, sənaye elektrik mənbələrindən uzaqda xidmət edən şəxsi heyətə uzunmüddətli rabitəni təmin edir. Tezlik atlama imkanı ilə düşmənin radio kəşfiyyat vasitələrini bizim radio məlumatları ələ keçirmə və susdurma imkanını minimuma endirir. Rabitənin gizliliyi və dayanıqlığı təmin edilir. Bütün bunlarla yanaşı, açılmış rabitə sisteminin vahid mərkəzdən idarə edilməsi, şifrələnməsi, qəzaya nəzarət edilməsi və yönləndirilməsi kimi bir çox funksiyaların yerinə yetirilməsi asanlaşır.





Bu günlərdə ordumuzun rabitə hissə və bölmələri ilə kompleks məşqlər keçirildi. Məşqlərin planına uyğun olaraq rabitə bölmələri əsas, taktiki və arxa komanda məntəqələri olmaqla üç məntəqədə açıldılar. Şəxsi heyətin müasir texnikalarla səhra şəraitində iş təcrübəsinin artırılması, bilik və bacarıqlarının təkmilləşdirilməsi, bölmələr arasında qarşılıqlı uzlaşmanın təmin edilməsi, həmçinin vahid rabitə sisteminin təşkili, eləcə də radioelektron mübarizə tədbirləri üzrə qarşıya qoyulan bütün tapşırıqlar uğurla icra olundu.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti rabitə hissə və bölmələri ilə keçirilən kompleks məşqlərin gedişatı ilə tanış oldular. Səhra idarəetmə məntəqələrində məşqlərin təşkili və gedişatı ilə maraqlanan müdafiə nazirinə bölmələrin sərəncamındakı müasir rabitə avadanlıqları təqdim edildi.

General-polkovnik Zakir Həsənov müasir rabitə vasitələri ilə səhra şəraitində birbaşa məşq yerindən qoşun növlərinin komanda-idarəetmə məntəqələri, həmçinin azad edilmiş ərazilərdə dislokasiya olunan birlik və birləşmələrin qərargahları ilə video-konfrans rejimində əlaqə saxlayaraq məruzələri dinlədi.

Məşqlərin gedişatını müsbət qiymətləndirən nazir rabitə hissə və bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi, qoşunlar arasında vahid rabitə və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təşkilinin vacibliyini qeyd etdi.

Ordumuzda belə təlim və məşqlərin davamlı hal alması hərbçilərimizin müasir texnika və avadanlıqlardan istənilən anda sərbəst istifadəsinə imkan yaradır. Sevindirici haldır ki, Azərbaycan Ordusunun rabitə bölmələri müasir tələblərə cavab verən yeni nəsil rəqəmsal rabitə vasitələri ilə təchiz olunduğu kimi bu texnikaları döyüş meydanında istifadə edəcək peşəkar, işinin mütəxəssisi olan hərbi qulluqçularla da tam komplektləşdirilib. Onlar müntəzəm olaraq arsenalımıza əlavə edilən yeni vasitələrin istismar xüsusiyyətlərinin mənimsənilməsi üçün Azərbaycanda və xarici ölkələrdə müvafiq kurslara cəlb edilirlər. Hərbi qulluqçularımız inkişaf etmiş dünya ordularının nəzəri və praktiki bacarıqlarından müntəzəm olaraq faydalanırlar.

44 günlük Vətən müharibəsində qazanılan təcrübə də onu göstərdi ki, qoşunlar arasında qarşılıqlı davamlı rabitənin olması döyüş hazırlığının vacib şərti olmaqla yanaşı, qələbəni təmin edən başlıca amillərdəndir.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Silah və texnikanın yay mövsümündə istismar rejiminə keçidi davam etdirilir

*Plana uyğun olaraq Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində silah, döyüş və xüsusi texnikanın istismarının yay mövsümünə keçirilməsi prosesi davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrdə fəaliyyət göstərən texniki xidmət məntəqələrində iqlim şəraitinin xüsusiyyətləri də nəzərə alınaraq döyüş və xüsusi texnikaların yanacaq-sürtkü materiallarının dəyişdirilməsi həyata keçirilir, elektrik sistemlərinin vəziyyəti yoxlanılır, həmçinin onlara planlı şəkildə mövsümi qulluq göstərilir.

Bundan başqa şəxsi heyətlə yay şəraitində texnikanın istismarı qaydaları və təhlükəsizlik tələblərinin öyrənilməsi üzrə dərslər keçirilir.



# Kommunikasiya Strategiyasının icrası ilə bağlı işçi qrupun görüşü keçirilib

Müdafiə nazirinin müvafiq qərarı ilə təsdiq edilmiş nazirliyin Kommunikasiya Strategiyasının icrası məqsədilə yaradılan "İşçi qrup"un görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə Müdafiə Nazirliyinin müxtəlif qoşun növü, müəssisə və təşkilatlarının məsul vəzifəli şəxsləri, eləcə də "İşçi qrup"un üzvləri nazirliyin Kommunikasiya Strategiyasının təkmilləşdirilməsi istiqamətində görülən işləri müzakirə ediblər.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzda aparılan islahatlar, əldə edilən uğurlar və tətbiq edilən yeniliklər barədə məlumatların operativ çatdırılması zəruri informasiya fonunu yaratmaqla ictimaiyyətin maarifləndirilməsini, vətəndaş məmnunluğunu, eləcə də dövlət-xalq-ordu birliyinin möhkəmləndirilməsini təmin edəcəkdir.

Görüşdə təcrübələrin toplanılması və öyrənilməsi, təhlil metodları, qiymətləndirmə və digər mövzulara dair brifinqlər təqdim olunub, nazirliyin kommunikasiya sahəsində prioritet fəaliyyət istiqamətlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.



## Tibb xidməti

# "İnsan həyatı üçün ən vacib şərt sağlamlıqdır"

Ordunun gücü sağlam və möhkəm əsgərləridir. Əsgərlərin keçirilən dərslərdə və təlimlərdə fəal iştirak edərək, hərbi bilik və vərdişlərə dərindən yiyələnməsi üçün əhval-ruhiyyələri daim yüksək olmalıdır. Bunun üçün də ordumuzun bütün bölmələrində yaradılan yüksək sosial-məişət şəraiti onların mənəvi-psixoloji hazırlığına müsbət təsir edən əsas amillərdəndir. Əsgərlərin sosial təminatı ilə yanaşı, sağlamlığı da diqqət mərkəzindədir. Fəlsəfə tarixində pessimist alman kimi tanınan filosof Artur Şopenhauer deyib ki, sağlam deyilsənsə, yediyin bal da zəhər olacaq.

Hərbi hissələrdə xidmət keçən gənclərin sağlamlığını ciddi nəzarətdə saxlayan, müasir tibbi avadanlıqlarla təchiz olunmuş peşəkar həkimlərin çalışdığı tibb məntəqələri fəaliyyət göstərir.

"N" hərbi hissəsinin tibb məntəqəsində əsgərlərin sağlamlığının qeydinə qalan həkimlərlə, feldşerlərlə, digər işçilərlə söhbətləşdik. Məntəqənin səliqə-sahmanı, təmizliyi, çalışanların nizamlı geyim forması göz oxşayırdı. Tibb xidməti mayoru Emil Nəbiyev bizi palata, müayinə və müalicə otaqları ilə tanış etdi. Söhbət zamanı Tibb Universitetinin məzunu olan zabit peşəsindən söz açaraq, həkimliyin özünəməxsus xüsusiyyətləri olduğunu dedi: "Həkim öz davranışı, şəxsiyyəti, təfəkkürü, dünyagörüşü və insanlara münasibətilə fərqlənməlidir. Ən əsası səmimiyyəti ilə özünə inam yaratmağı bacarmalıdır. Həkimin xoş sözü, mehribanlığı, qayğıkeşliyi xəstənin narahatlığına məlhəm olan ilk amillərdir. Ona görə də bu sənətin sahibləri xəstəni tibbi müayinə etməzdən əvvəl onunla səmimi söhbət etməli, problemini tam aydınlıqla öyrənməlidir. Həkimə inam hissi olmadıqda onun həyata keçirdiyi bütün müalicə tədbirləri səmərəsiz olur. Biz də əsgərlərimizi müayinə və müalicə edərkən bu prinsipi rəhbər tutur, onlara xüsusi qayğı ilə yanaşırıq. Məntəqəyə müraciət edən əsgərlərlə elə ünsiyyət qururuq ki, onlar sərbəst şəkildə narahatlıqlarını bizimlə bölüşsünlər".

Ən təsirli müalicə vasitəsinin həkimin qayğıkeşliyi və səmimiyyəti olduğunu deyən zabit vurğuladı ki, əsgərlərin xəstələnməməsi üçün qabaqcıl profilaktik tədbirlərin həyata keçirilməsi ən birinci vəzifələrimizdəndir.

Qəbul otağına daxil olduq. Bir neçə əsgər növbə ilə həkim yoxlanışından keçirdi. Tibb xidməti leytenantı Elməddin Əliyev Hərbi Tibb Fakültəsinin məzunudur. Əsgər Nadir Quliyevi müayinə edən zabit dedi ki, insan həyatı üçün ən vacib şərt sağlamlığıdır. "Sağlamlıq olmayan yerdə heç bir işgüzarlıqdan söhbət gedə bilməz. "Sağlam bədəndə sağlam ruh olar" deyilir. Hərbi xidmət keçən gənclərimizin də sağlam olması onların mənəvi-psixoloji durumuna, döyüş qabiliyyətinə müsbət təsir edir. Əlimizdən gəldiyi qədər çalışırıq ki, əsgərlərimiz xəstələnməsinlər, narahatlığı olanlar isə tezliklə sağalıb xidmətinə davam etsinlər. Qəbul otağında müraciət edənlərin ilkin müayinəsi və qeydiyyatı aparılır. Sonra ambulator müayinə edilir, ehtiyac olarsa məntəqədə saxlanılır. İki müqəddəs peşə sahibi kimi gördüyüm işdən qürurlanıram. Çünki hərbi qulluqçuların sağlamlığı bizə əmanət edilir. Vəzifəmiz səhhətində problemi olanları müalicə etməklə yanaşı, həm də xəstəliklərin qarşısını əvvəlcədən almaqdan ibarətdir. Bunun üçün mütəmadi olaraq bölmələrdə geniş profilaktik işlər görülür, xəstəlik törədən viruslardan qorunmağın yolları haqqında şəxsi heyətlə maarifləndirici söhbətlər aparılır, tövsiyələrimizi çatdırırıq".



Nadir də göstərilən qayğıdan razılığını bildirdi: "Başımda ağrı hiss etdiyim üçün məntəqəyə gətirildim. Həkim sorğu-suallarla ağrının hansı səbəbdən, nə vaxtdan olmasını təyin etdi. Sonra temperaturumu və təzyiqimi ölçərək müayinə və müalicə etdi. Artıq hər şey qaydasındadı, ağrım azalıb. Həkim bir neçə saat nəzarətdə qaldıqdan sonra bölməmə qayıdacağımı bildirdi. İlk dəfədir tibb məntəqəsinə gəlirəm. Burada doğma münasibət gördüm. Məntəqənin tibb xidməti kollektivinə minnətdarlığımı bildirirəm".

Feldşer gizir Məhəmməd Mansurov xəstəlik törədən virusların çox yayıldığı bu vaxtlarda şəxsi heyətin səhhətini xüsusi diqqətdə saxladıqlarını və qabaqlayıcı tədbirlər gördüklərini bildirdi. "Şəxsi heyəti viruslardan qorumaq üçün vaxtaşırı onları yoxlanışdan keçirir, immuniteti zəif olanları xüsusi diqqətdə saxlayırıq. Üzərimizə qürurlu olduğu qədər məsuliyyətli olan vəzifələr düşür. Ana Vətənimizi qoruyan mərd oğulların sağlamlığı bizə əmanət olunur. Əsgərləri sağlam və gümrah görəndə sevinirik ki, vəzifələrimizin öhdəsindən layiqincə gələ bilirik".

Bir neçə gündür tibb məntəqəsində müalicə alan əsgər Fəhmin İbadovla da söhbətləşdim. Kəskin respirator xəstəliyi olduğu üçün burada müalicə olunduğunu bildirdi. "Hərbi hissədə hərtərəfli qayğı ilə əhatə olunmuşuq. Heç nədən korluq çəkmədən xidmət edirik. Həkimlər də tez-tez bölməmizə gəlir, səhhətimizlə maraqlanırlar. Müalicəm uğurla davam edir, səhhətim gündən-günə yaxşıya doğru gedir. Həkimlərin qayğısı sayəsində tezliklə tam sağalıb bölməmə qayıdacağam".

Hərbi hissənin əsgər yataqxanalarında yaradılan yüksək məişət şəraiti, həmçinin şəxsi heyətin sağlamlığını nəzarətdə saxlayan ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi bir daha sübut edir ki, ordumuz Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə tam əhatə olunub.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# "Xalqımızı zəfərlərimizlə sevindirəcəyik"

Komando hərbi hissəsində xidmət edən hərbçilərlə görüşümüz yaddaqalan oldu. Şəxsi heyət təlimdən yenicə qayıtmışdı. Əsgərlərə müvafiq əmr və tapşırıqlar verən kapitan Taleh Əlcəfərovla söhbətləşdik. Öyrəndik ki, zabit Taleh Əlcəfərov 18 oktyabr 1989-cu ildə keçmiş ittifaqın Sverdlovsk vilayətinin Yekaterinburq şəhərində dünyaya göz açıb. 1993-cü ildə ailəsi ilə Naxçıvan Muxtar Respublikasının Babək rayonuna qayıdıb. 9-cu sinfə qədər Payız kənd orta məktəbində oxuyub. 2005-ci ildə hərbçi olmaq məqsədilə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub. Hərbi təhsil ocağını uğurla başa vurub. Biliklərini təkmilləşdirdikdən sonra 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbə ((indiki Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutu) qəbul olunub. Ali hərbi təhsilini başa vurduqdan sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "zabit ixtisasartırma kursu" keçib. Kapitan Taleh Əlcəfərov ordumuzun böyük uğurlar qazandığı, düşmənə sarsıdıcı zərbələr vurduğu Aprel döyüşlərində iştirak edib. Lələtəpə yüksəkliyi uğrunda gedən əməliyyatlar zamanı üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib.

2016-2017-ci illərdə komandanlıq peşəkarlığını daha da artırmaq məqsədilə kapitan Taleh Əlcəfərovu Türkiyə Respublikasında Komando kurslarına keçməyə göndərib. Zabit bu kursları uğurla bitirərək bacarığını, peşəkarlığını daha da artırıb. Vətən müharibəsində də iştirak edən kapitan əsasən Murovdağ istiqamətində vuruşub. Torpaqlarımızın düşmən təcavüzündən azad olunması uğrunda gedən döyüşlərdə cəsarət və hünər göstərib. Hazırda zabit Komando hərbi hissəsində xidmətdədir. Bu günə qədər qazandığı hərbi bilikləri gənc əsgərlərə böyük həvəslə öyrədir. Təcrübəli zabitlə söhbətə ordu quruculuğu mövzusuyla "cığır" salırıq.

**- Cənab kapitan, bu gün ordumuzda islahatlar aparılır, quruculuq işləri görülür. Sevindiricidir ki, həyata keçirilən uğurlu islahatlar ordumuzun gücünü, qüdrətini daha da artırır.**

- Bu gün biz tariximizin şərəfli anlarını yaşayırıq. 2020-ci ildə Azərbaycan Ordusu böyük hünər və cəsarətlə işğala son qoydu. Qarabağı, həmçinin uzun illər erməni qəsbkarlarının işğalda saxladığı rayonları



azad etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunda müntəzəm olaraq genişmiqyaslı islahatlar aparılır, uğurlara doğru inamlı addımlar atılır. Yeni-yeni hərbi hissə və birləşmələr yaradılır. Quruculuq və əsaslı təmir-tikinti işləri aparılır. Həmçinin şəxsi heyətin döyüş hazırlığının, peşəkarlığının daha da artırılması məqsədilə döyüş atışlı təlimlər və məşğələlər də keçirilir. Bu uğurlu islahatlar nəticəsində Azərbaycan Ordusunun gücü, qüdrəti gündən-günə artır.

**- Ordumuzda Komando hərbi hissələri yaradılır. Siz də yeni yaradılmış Komando hərbi hissəsində xidmət edirsiniz. Bu haqda nə deyə bilərsiniz?**

- Azərbaycan Ordusunda Komando hərbi hissələri yaradılması təbii ki, bizi çox sevindirir. Ordu strukturu təkmilləşdirilərək modernləşdirilir. Yeni yaradılan hərbi hissələrin şəxsi heyəti daha hazırlıqlı, daha peşəkar, çevik və bacarıqlı qüvvələrdir. Bu hərbi hissə və birləşmələrdə xidmət edən zabit və əsgərlərin döyüş və fiziki hazırlığını daima artırmaq məqsədilə müntəzəm olaraq təlim-məşqlər, dərslər, çöl çıxışları və başqa gərəkli tədbirlər həyata keçirilir.

**- Şəxsi heyət növbəti məşğələdən yenicə qayıdıb. Təlim-məşqləriniz necə keçdi? Hansı tapşırıqlar yerinə yetirildi?**

- Bəli, bu günlərdə şəxsi heyətin döyüş hazırlığının daha da artırılması məqsədilə "Çöl şəraitində həyat fəaliyyətinin təmin olunması" mövzusunda təlim-məşq keçirildi. Məşğələnin mövzusu üç mərhələni əhatə edirdi. Birinci mərhələdə zabit və əsgərlər daimi yaşayış yerini tərk etmək tapşırığını yerinə yetirməli idi. İkinci mərhələdə ilkin yaşayış məntəqəsi seçilməliydi. Üçüncü mərhələdə iştirakçıların qarşısında seçdikləri yaşayış məntəqəsində həyat fəaliyyətlərini bərpa etmək tapşırığı dayanmışdı. Əmr verilən kimi təlim iştirakçıları məşğələnin mövzusuna uyğun olaraq, yaşayış yerindən çıxıb qarlı dağlara üz tutdu. Zabit və əsgərlər təlim zamanı qarşılarında dayanan tapşırıqları dağlıq ərazidə yüksək bacarıqla yerinə yetirdilər. Onlar gecəgörmə cihazlarından da istifadə edərək qaranlıqda hədəflərə atəş açdılar. Təlim iştirakçılarının atəş zərbələri şərti düşmənin hədəflərindən yayınmadı. Tələb olunan məsafə qət olunduqdan sonra iştirakçılar ilkin yaşayış məntəqəsini seçdilər və qısa müddət ərzində burada həyat fəaliyyətlərini bərpa etdilər. Tapşırıqları yerinə yetirərkən əsgərlər yüksək bacarıq göstərdilər. Onlar qarlı dağlardan, sıldırım qayalardan, dar cığırlardan məharətlə keçərək bütün maneələri uğurla dəf etdilər. Təlim zamanı göstərdikləri cəld hərəkətlər zabit və əsgərlərimizin döyüş hazırlıqlarının yüksək olmasının təsdiqi idi. Məşğələlər hərbçilər üçün sınaqdır. Şəxsi heyət bu sınaqdan uğurla çıxdı.

**- Gələcək xidmətinizdə sizə də, şəxsi heyətə də uğurlar arzulayırıq.**

- Çox sağ olun. Biz xidmətdə qazanacağımız uğurlarla, zəfərlərlə xalqımızı daim sevindirəcəyik.

**Söhbəti apardı:**
**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib

*Torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədilə "Şəhidlər ölməz - Vətən bölünməz!" tədbirlər silsiləsi çərçivəsində növbəti anım mərasimləri keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Vətən müharibəsi şəhidləri Qərib Baxşəliyev, Ramiq Mikayılov, Raqib Hüseynov, Nurlan Həsənov, Vüsal Muradov, Seymur Abbasov, Xəyal Aslanov, Ceyhun Xəlilov, Eltun Kərimov, Əli Cəfərli, Elşən İbrahimov, Miqdad Abduləlimov, Səbuhi Məcidov və Rahid Sadıxovun xatirəsinə həsr olunan anım mərasimlərində Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları iştirak ediblər.




Mərasimlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Şəhidlərin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarxlar təqdim olunub.

Tədbirlərdə çıxış edənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən söhbət açıblar.

Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.



# Şəhidə, şəhidliyə ehtiram

*Vətən müharibəsi Zəfərlə başa çatdı, torpaqlarımız işğaldan azad edildi. Bu Zəfər Azərbaycan Ordusunun, Ali Baş Komandanın sərkərdəlik məharətinin, xalqın orduya inamının, ordunun gücünün qüdrəti idi. BMT Təhlükəsizlik Şurasının illərlə həll edə bilmədiyi problemi Azərbaycan Ordusu həll etdi...*

Ermənistan üçtərəfli sazişi imzalasa da, ermənilik xislətindən əl çəkmir. İşğaldan azad edilmiş ərazilərə diversiya təxribat qrupları göndərir. Azərbaycan Ordusunun bölmələri bu təxribatların qarşısını qətiyyətlə alır. Əsgər Murad Qalib oğlu Xəlilov da düşmən təxribatının qarşısını alarkən şəhid oldu - 2021-ci ilin noyabrında.

Murad Xəlilov 2003-cü ilin yanvarında Şəmkir rayonunun Çinarlı qəsəbəsində anadan olmuşdu. Şəhid Natiq Süleymanov adına qəsəbə tam orta məktəbini bitirmişdi.

2021-ci ilin aprelində ordu sıralarına çağırılmışdı. Hərbi xidmət haqqında geniş təsəvvürü var idi. Vətən müharibəsi başlayanda o da döyüşlərə getmək istəmişdi. Ona da, tay-tuşlarına da demişdilər ki, sizin döyüşlərə getməyinizə ehtiyac yoxdur; müharibəni döyüşlərdən uzaqda yaşamışdılar.

Kəlbəcərdə xidmət edirdi. İntizamlı əsgər idi. Digər əsgər yoldaşları kimi o da komandirlərinin, Vətən müharibəsində iştirak etmiş zabitlərin döyüşlər haqqında söhbətlərini maraqla dinləyirdi. Belə söhbətlər onların mənəvi-psixoloji hazırlığının yüksəldilməsində vasitə olurdu...

Məğlub Ermənistan silahlı birləşmələrinin qrupları heç nəyə nail olmayacaqlarını bilsələr də, təxribat məqsədilə Kəlbəcərə də həmlələr edirdi. Əsgərlərimiz bu həmlələri qətiyyətlə dəf edirdilər. Belə həmlələrdən birinin qarşısının alınmasında Murad Xəlilov da iştirak edirdi. Qəfil həmlənin qarşısı alınsa da, düşmən geri çəkilmirdi. Əsgər Murad Xəlilova və digər iki əsgərə düşmənin diqqətini başqa səmtə yönəltmək üçün atışı bir qədər sağda davam etdirmək əmri verildi...




Atışdılar...

Murad yaralandı...

Murad şəhid oldu...

Döyüşçülərimiz düşməni geri çəkilməyə məcbur etdilər, ağır itkilər verən düşmən davam gətirə bilməyib qayıtdı...

Əsgər Murad Xəlilov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qəsəbədə şəhid Murad Xəlilovun xatirəsinə bulaq inşa edilib. Bu, şəhidə, deməli, şəhidliyə ehtiramdır...

Qəhrəmanlıq təkrar olunmur, qəhrəmanlığın mahiyyəti təkrar olunur. Bu mahiyyət Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətdir. Bu mahiyyət fərdi şücaətdir, cəsarətdir. Bu mahiyyət Vətən müharibəsində minlərlə döyüşçünün döyüş əzminin, qələbə ruhunun işığına dönür. Bu işıq döyüşçülərin qəhrəmanlığının yol göstərəni olur. Şəhidlərimizin hamısı son döyüşə bu işıqdan keçib getmişdi. Murad da...

İllər keçəcək, nə Vətən müharibəsi unudulacaq, nə qazanılan Zəfər, nə qazilər, nə də şəhidlər. Günümüzün uşaqları yeniyetmələşəcək, yeniyetmələr gəncləşəcək, ancaq şəhidlər həmişə şəhid olduğu yaşda gənc qalacaqlar.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Şəhid adının müqəddəsliyi

*5 avqust 2000-ci ildə Lerikdə dünyaya gələn Altay Tahir oğlu Mövlanov 44 günlük İkinci Qarabağ müharibəsində Füzuli istiqamətində gedən ağır döyüşlərdə qəhrəmanlıqla şəhidlik zirvəsinə ucaldı. Vətən yolunda canını qurban etdiyinə görə onun bu ölümü ömrünün sonu olmur. Necə deyərlər, 20 yaşında Altay əbədiyyətə qovuşaraq özünə ürəklərdə əbədi yurd-yuva qurur. Qərinələr keçəcək, Altay Vətənini sevən igid, mərd döyüşçü, layiqli vətəndaş kimi ehtiramla xatırlanacaq.*



Vətən, torpaq sevgisi ilə boya-başa çatan Altay əsgər yaşına çatanda sevinir. Axı, işğal olunmuş əzəli yurd yerimiz Qarabağ torpaqlarından erməni faşistlərini qovmaq onun da ən böyük arzusu idi. Vətən qarşısındakı borcunu yerinə yetirmək üçün hərbi xidmətə yola düşür. Ön cəbhədə xidmət edir. Səmimiliyi, mərdliyi Altaya əsgər və zabitlərin hörmətini qazandırır. O, hərbi təlimlərdə fərqlənir, eyni zamanda, nümunəvi xidməti ilə komandirlərin rəğbətini qazanır.

Altay hərbi xidmətini başa vursa da, İkinci Qarabağ müharibəsi başlayanda döyüşlərə qatılır. Ona görə ki, Vətən torpağını azad etmək zamanı çatmışdı. Döyüşür... Vətəni öz qanı bahasına yaşadan qeyrətli oğullardan biri də məhz o olur.

Hər qarış Vətən torpağı uğrunda canıyla-qanıyla döyüşən Altay Füzuli istiqamətində gedən ağır döyüşlərdə "Vətən yaşasın!", - deyə polad sinəsini gülləyə sipər edir. Onun qısa həyat yolu xalqı üçün Vətənə sevgi simvoluna dönür.

Bəli, Vətən, torpaq uğrunda şəhid olanların ömrü əbədidir. Şəhid adının müqəddəsliyində Altay Mövlanovun da yeri dünya durduqca saf ürəklər olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Altay Tahir oğlu Mövlanov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Mənziliniz mübarək, igidlər!

*Aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayında geniş nitq söyləyən dövlət başçısı İlham Əliyev qələbənin tarixi əhəmiyyətinin böyüklüyünü diqqətə çatdıraraq deyib: "Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur.*

Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda. İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir".





Vətən müharibəsi ordunun gücünü göstərməklə yanaşı, xalqın birliyinin, əzminin ifadəçisinə çevrildi. Eyni zamanda, qazanılan zəfər illərlə çəkilən zəhmətin bəhrəsi kimi nəticələndi. Bu zəhmətdə gənclərin milli ruh, vətənpərvərlik ideologiyası istiqamətində düzgün yetişdirilməsi də var idi. Gənclərin hərb peşəsinə marağı da artdı. Bu bir tərəfdən mövcud vəziyyətdən (torpaqlarımızın işğal altında olmasından) irəli gəlirdisə, digər tərəfdən hərbi təhsil ocaqlarının yaradılması, ordu quruculuğu istiqamətində görülən ardıcıl tədbirlərin səmərəsi kimi özünü büruzə verirdi. Ulu öndər Heydər Əliyevin 13 mart 1998-ci il tarixli sərəncamı ilə Naxçıvanda yaradılan ilk hərbi təhsil ocağı bu günədək yüzlərlə gəncin hərb peşəsinə yönəlməsində müstəsna rol oynayıb. Şərur rayonunun Danyeri kəndindən olan Əli Əlisoy da 8-ci sinfi bitirdikdən sonra məqsədinin arxasınca Naxçıvan şəhərinə yollanıb. 2010-2013-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb, ilkin hərbi biliklərə yiyələnib. Yiyələndikcə bu peşəni daha çox sevib və düzgün qərar verdiyinə bir daha əmin olub. 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutu) bitirərək "N" hərbi hissəsində xidmətinə başlayıb. 2018-2020-ci illərdə taqım komandiri, sonra bölük komandiri vəzifələrində xidmət edib.

27 sentyabrda başlayan döyüşlərə qatılan Əli Əlisoy ermənilərin "Ohanyan səddi" adlandırdığı mövqelərinin yarılmasında iştirak edib.

Baş leytenant Əli Əlisoy: "Düşmən ilk gündən itki verərək geri çəkilirdi. Hücum əsnasında tankımızı yanmaqdan xilas edərkən boyun hissədən qəlpə yarası aldım. Buna baxmayaraq döyüşə davam etdim. 28 sentyabrda verilən döyüş tapşırığını yerinə yetirərkən snayper məni vurdu. Əsgərlər - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Ramin Abbasov və Qiyas Ağayev məni döyüş meydanından çıxartdılar. Bud sümüyünün açıq-qırıq diaqnozu ilə Füzuli Diaqnostika və Müalicə Mərkəzinə yerləşdirildim. Bu günədək 7 dəfə əməliyyat olunmuşam".

17 noyabr tarixində Naxçıvan növbəti şəhidlərini qarşılayırdı. Mən də həmin təyyarə ilə qayıdırdım. Təyyarədən enərkən gözüm əsgərlərdən birinin əlində tutduğu şəklə sataşdı. Bu, həmin gün qarşılanan şəhidlərdən biri - baş leytenant İsmayıl Vəliyev idi. İsmayıl mənim Hərbi liseydən kursant yoldaşım idi. Öyrəndim ki, bayrağımızı yüksəkliyə asmaq istəyərkən düşmənin hədəfinə tuş gəlib. Bədəninin bir hissəsi yansa da, bayrağı sinəsinə sıxaraq yanmaqdan qoruyub və uğruna şəhid olub. Onun itkisi məni sarsıtsa da, zabit adına yaraşan şücaəti qürurlandırdı.

Balaca Turan atasını qucaqlayaraq sinəsindəki medallara diqqət kəsilir. "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları 14 yaşından taleyini hərb peşəsinə bağlayan bir gəncin uğurudur. Dövlətimizin qayğısını hər zaman öz üzərində hiss edən Əli Əlisoyun ailəsi Qıvraq qəsəbəsindəki yeni yaşayış binasında ikiotaqlı mənzillə təmin olunub: "Ayrıca mənzilimiz yox idi, kənddə atamgillə birlikdə yaşayırdıq. Novruz bayramı ərəfəsində mənzillə təmin olunmağımız bizə ikiqat bayram sevinci yaşatdı. Ötən il Zəfər günü ərəfəsində isə avtomobillə təmin olunmuşam. Sağlamlığımla əlaqədar peşəmi davam etdirə bilməsəm də, ruhumla, canımla, qanımla yenə də bu Vətənə bağlıyam. Vətəndaş olaraq gənc nəslin vətənpərvər ruhda böyüməsində mən də öz əməyimi əsirgəməyəcəm".

Əli Əlisoyla sağollaşıb onun mənzilindən iki mərtəbə yuxarıda yaşayan qonşusu - Sadiq İbrahimli ilə görüşdük. Sadiq Şərur rayonunun Qarahəsənli kəndindəndir. 2017-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi "N" hərbi hissəsində xidmət edib. Onun döyüş yolu Füzuli istiqamətindən başlayıb. Sadiq İbrahimli: "Qızım Zəhranın bir yaşı tamam olanda mən Xocavənddə idim, oradan təbriklərimi çatdırdım. Ağır döyüşlər gedirdi. Bu döyüşlərdə əsgər yoldaşlarım Qurban İbrahimov və Ruzi İbrahimovu itirdik. Bu, mənim üçün ağır idi. Lakin düşməni məğlub etmək, şəhidlərimizin qanını yerdə qoymamaq, torpaqlarımızı azad etmək başlıca missiyamız idi. Döyüşlərə qatıldığımız gündən qələbə qazanacağımıza əmin idik. Noyabrın 4-ü ağır yaralandım və döyüş meydanından təxliyə olundum".

Sadiq İbrahimli söhbət əsnasında onu da xüsusilə vurğuladı ki, xidmət dövründə Naxçıvanda keçirilən bir sıra təlimlərdə iştirak edib. O cümlədən, 2018-ci ildə Türkiyənin Sparta şəhərində "Komando" kursunun iştirakçılarından olub. Təbii ki, keçirilən bu təlimlər onun və əsgər yoldaşlarının bir döyüşçü kimi yetişməsində böyük rol oynayıb.

"Bizim Qarahəsənli kəndi Vətən müharibəsində iki şəhid verib. Leytenant Həsən Quliyev və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Həsən Cəlilov bu döyüşlərdə şücaət göstəriblər", - Sadiq İbrahimli dedi. Özü isə göstərdiyi şücaətə görə "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub. "Babam 1941-1945-ci illər müharibəsinin iştirakçısı olub. Atam isə Əfqanıstan müharibəsi veteranıdır. Mən ata-babamdan necə örnək götürmüşəmsə, istəyirəm ki, oğlum İbrahim də məndən örnək götürsün və hərb peşəsini seçsin".

Ötən il avtomobillə təmin olunan Sadiq İbrahimliyə bu il mənzil sevincini yaşamaq da nəsib olub.

Binanın həyətində qazi Məftun İbrahimovla qarşılaşdıq. Cəbrayıldan Şuşaya qədər döyüş yolu keçən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Məftun İbrahimovun sinəsini "Döyüşdə fərqlənməyə görə", "Şücaətə görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları bəzəyir. O da mənzillə təmin olunub.

"Mənziliniz mübarək!", - deyib geriyə Naxçıvan şəhərinə qayıtdıq. Qələmə aldıqlarımızı qısa zamanda siz oxucularla bölüşmək üçün. Bizə Zəfər sevincini yaşadan, illərdir çəkdiyimiz torpaq həsrətinə son verən, Vətən torpaqlarını yağı düşməndən azad etməkdə payı olan hər bir döyüşçünü - igidi tanımaq, tanıtmaq bizim üçün böyük şərəfdir.



**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**



T.C. Milli Savunma Bakanlığı
@tcsavunma
Türkiye devlet kurumu

Bizi birbirimize bağlayan sarsılmaz kardeşliğimizdir! 🇹🇷🇦🇿

Azerbaycan Türkü kardeşlerimizle beraber Kars'ta icra ettiğimiz "Haydar Aliyev-2022 (Türkiye–Azerbaycan) Fiilî Atışlı Ortak/Müşterek Tabur Görev Kuvveti Arazi Tatbikatı"nın Seçkin Gözlemci Günü gerçekleştirildi.

873 görüntülenme

## "Bizi bir-birimizə bağlayan sarsılmaz qardaşlığımızdır"

*Azərbaycan və Türkiyə hərbçilərinin qardaş ölkədə davam edən birgə təlimləri çərçivəsində Seçilmiş Müşahidəçi Günü keçirilib.*

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirliyin rəsmi tviter səhifəsində yer alan məlumatda deyilir: "Bizi bir-birimizə bağlayan sarsılmaz qardaşlığımızdır".

Azərbaycan türkü qardaşlarımızla birlikdə Qarsda icra etdiyimiz "Heydər Əliyev-2022" Faktiki Atış Birgə Batalyon İşçi Qrupunun Səhra Təlimi"nin Seçilmiş Müşahidəçi Günü keçirilib.

Məlumatda təlimlərlə bağlı videomaterial da yer alıb.

## Müdafiə Nazirliyi: İstifadəyə yararsız döyüş sursatlarının Seyfəli poliqonunda utilizasiyası davam etdirilir

*Azərbaycan Ordusunun bölmələri tərəfindən istismar müddəti başa çatmış və istifadəyə yararsız döyüş sursatlarının təhlükəsizlik tədbirlərinə əməl olunmaqla planlı şəkildə utilizasiyası davam etdirilir.*

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş sursatlarının utilizasiya prosesi mayın 23-dən 28-dək Seyfəli poliqonunda həyata keçiriləcək.

Aparılan partlayış işləri ilə əlaqədar ictimaiyyətə mütəmadi məlumat veriləcək.

*Redaksiyamızın qonağı*

# Hərbi musiqimizin Cıdır düzündə Cəngi sədaları

*Müasir ordu quruculuğunda xüsusi yeri və əhəmiyyəti olan hərbi musiqimiz şərəfli tarixi yol keçdi. Bu 30 illik dönəmdə hərbi quruculuqda ordu ənənələrini yaşatmaq və onu daha da inkişaf etdirmək qarşıda dayanan əsas vəzifələrdən biri oldu. Dövlət tədbirlərindən tutmuş, şəxsi heyətin vətənpərvərlik və döyüş ruhunun yüksəlməsində, mənəvi-psixoloji hazırlıqlarının artırılmasında hərbi musiqimizin xidməti əvəzsizdir.*



Müsahibimiz Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin rəisi, Əməkdar İncəsənət xadimi polkovnik-leytenant Rüfət Axundzadədir.

**- Cənab polkovnik-leytenant, rəhbərlik etdiyiniz musiqi kollektivinin peşəkar fəaliyyəti göz önündədir. Hərbi orkestr həm ordu, həm də dövlət tədbirlərində Azərbaycan Respublikasının Dövlət Himnini, müxtəlif musiqiləri səsləndirir. Bunun üçün də peşəkarlıqla yanaşı, hazırlıqlı olmaq mütləqdir. Dərslər, məşqlər, tədbirlərə hazırlıqlar barədə nə deyə bilərsiniz?**

- Hər an dövlət tədbirlərində iştirakımız gözlənilir. Bu səbəbdən də daim məşq edir, hazırlığımızı artırırıq. Bunun üçün də fəaliyyətin düzgün təşkil olunması əsas şərtdir. Çünki qarşımızda çox əhəmiyyətli və əlamətdar günlər var. Bildiyimiz kimi, Hərbi Orkestr 1992-ci il dekabrın 3-də yaradılıb. Bu il yubileyimizdir. Buna görə də həm estrada, həm də orkestrin konsert heyəti ilə ciddi məşqlər aparırıq. Eyni zamanda, 26 İyun - Silahlı Qüvvələr Günü ilə əlaqədar şəhərdə möhtəşəm konsert proqramı da təşkil etməyi planlaşdırırıq. Proqramda hərbi vətənpərvərlik mahnıları, həmçinin Azərbaycanın və xarici ölkələrin tanınmış bəstəkarlarının estrada əsərlərini ifa etməyi nəzərdə tutmuşuq. Düşünürük ki, milli alətlərimizi - tar, davul, zurna, balabanı da proqrama daxil edək ki, daha maraqlı, daha rəngarəng olsun. İlin sonunda Hərbi Orkestr Xidmətinin 30 illik fəaliyyətinə işıq salan möhtəşəm konsert proqramımız da unudulmaz və yaddaqalan olacaq.

**- 8 Noyabr - Zəfər Günü ilə bağlı konsert proqramı nəzərdə tutmusunuzmu?**

- Əlbəttə, Qələbəmizin ikinci ildönümü ilə əlaqədar geniş konsert proqramına maraqlı və zəngin çıxışlar daxil edəcəyik. Bu Zəfərin təntənəsini bir ömür musiqilərimizdə yaşadacağıq.

**- Hərbi orkestrin əsas fəaliyyət istiqamətləri hansılardır?**

- 30 il ərzində Hərbi Orkestr dövlət müstəqilliyimizin möhkəmlənməsində, ordumuzun qüdrətlənməsində xidmətini uğurla apardı. Siz bilirsiniz ki, Əlahiddə Nümunəvi Hərbi Orkestrin fəaliyyət istiqaməti ölkəmizdə rəsmi səfərdə olan qonaqların qarşılanma mərasimlərini, xüsusi əhəmiyyətli hərbi təyinatlı rəsmi tədbirləri və mədəni-kütləvi, ictimai tədbirləri əhatə edir. Bütün bu geniş fəaliyyət istiqamətlərini ən yüksək səviyyədə yerinə yetirmək üçün kollektivimiz hər zaman daha məsuliyyətlə çalışmağı qarşısına məqsəd qoyub. Şükürlər olsun ki, keçirdiyimiz bütün tədbirlər ən yüksək səviyyədə qəbul olunub, minnətdarlıq hissi ilə qarşılanıb. Böyük ustalıqla ifa olunan ölkələrin dövlət himnləri məmnunluqla dinlənilib. Hətta təcrübəmizdə o da olub ki, bəzi dövlət rəhbərləri bizə yaxınlaşaraq digər əsərlərin də səsləndirilməsini istəyiblər. Onlar ifa etdiyimiz əsərlərə heyranlıqla qulaq asıblar.

**- Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ötən il Zəngilana və Şuşaya səfəri çərçivəsində Hərbi Orkestrin çıxışları oldu. Bu barədə də fikirlərinizi öyrənmək istərdik.**

- İşğaldan azad olunmuş torpaqlarımızda - Zəngilanda, Şuşada Dövlət Himnimizi ifa edəndə hər birimizin qəlbi qürur hissi ilə döyünürdü. Doğrudan da Mədəniyyət paytaxtımız, Üzeyir bəyin, Bülbülün Vətəni Şuşada Dövlət Himnimizi ifa etmək nə qədər qürurverici idisə, bir o qədər də məsuliyyətli idi. 2022-ci il respublikamızda Şuşa ili elan olunub. Əlahiddə Nümunəvi Hərbi Orkestrin Şuşada təntənəli konsert proqramını təşkil etmək ən böyük arzumuzdur. Onu da deyim ki, keçən il Zəfər Günündə Hərbi Orkestrin yaradıcı kollektivi Cıdır düzündə Dövlət Himnimizi, zurna, davul, balabanla Cəngi rəqsini, "Qələbə" marşını səsləndirdi. Mən heç vaxt Şuşada olmamışdım. Həqiqətən də, Şuşa insan əlinin yox, təbiətin yaratdığı möcüzə şəhəridir. Onu da qeyd edim ki, Şuşada Zəfər Günündə Hərbi Orkestr Dövlət Himnimizi səsləndirərkən hərbçilərlə birlikdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin himnimizi ifa etməsi hər birimizin yaddaşında əbədi qalacaq. O anları yaşamaq özü bir fəxrdir.

**- Bəs ordu musiqisinin nəzəri və praktiki imkanları hansı səviyyədə təşkil olunur, öyrənilir?**

- 2009-cu ildən 2013-cü ilədək Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrin inkişafında yeni bir dönəm başladı. İlk konsertlərimizi təşkil etdik. Yeni əsərlərə müraciət etməyə başladıq. Xarici ölkələrin bəstəkarlarının əsərlərini orkestrin ifasında səsləndirdik. Məşhur xarici kinofilmlərin musiqilərindən, məsələn, "Şindlerin siyahısı" filmindəki musiqidən istifadə etdik. Mən ilk olaraq Fikrət Əmirovun "Kürd ovşarı" simfonik muğamını, "Azərbaycan" kapriççiosunu, Qara Qarayevin şedevr əsərlərini Hərbi Orkestrin ifasına daxil etmişəm. Onu da qeyd edim ki, Əlahiddə Nümunəvi Hərbi Orkestr fəaliyyət istiqamətlərinə və səslənməsinə görə seçilir. Hətta xarici ölkələrdə də tanınır. Mən ilk dəfə milli alətlərimizin hərbi orkestrin nəfəs və zərb alətləri ilə birlikdə sintezini etmişəm. İlk dəfə olub ki, orkestrin vətənpərvərlik mövzusunda səsləndirdiyi milli əsərlərdə tar, davul, zurnadan istifadə olunub. "Qarabağ şikəstəsi"ni, "Sarı gəlin" mahnısını buna misal gətirə bilərəm. Səsləndirilən digər milli əsərlər də çox maraqla qarşılanıb. Bu bir yenilikdir.



Vurğulamaq yerinə düşər ki, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə geniş əlaqələrimiz və işbirliyimiz var. Özüm də orada pedaqoji fəaliyyətlə məşğul oluram. Bu musiqi ocağı ilə sıx əməkdaşlığın aparılması, Hərbi Orkestrin gələcəkdə peşəkar kadrlarla təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

**- Azərbaycanda akkreditə olunmuş bəzi ölkələrin əlamətdar günlərinə, milli bayramlarına da dəvət olunursunuz və belə tədbirlərdə yaxından iştirak edirsiniz.**

- Bəli, bu artıq ənənə halını alıb. Səfirliklərdən, hərbi attaşelərdən rəhbərliyə müraciət edilərək xahiş olunur ki, Hərbi Orkestr dövlət himnlərinin səsləndirilməsində iştirak etsin. Bu ölkələrin nümayəndələri artıq bilirlər ki, onların dövlətlərinə məxsus himn və musiqilər yüksək peşəkarlıqla səsləndiriləcək. Bu günlərdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında yaradılan bədii rəhbəri olduğum tələbələrdən ibarət nəfəs və zərb alətləri orkestri ilk dəfə idi ki, Pakistan Respublikasının Milli Günündə konsert proqramı ilə iştirak etdilər. Qeyd edim ki, həmin orkestrin dirijoru Taleh Qəmbərovdur. Tədbirdə tələbələrlə yanaşı, Hərbi Orkestrin bir qrup yaradıcı heyəti də iştirak etdi. Pakistan xalqının milli musiqilərindən ibarət əsərlərin səsləndirilməsi böyük maraqla qarşılandı. Səfir orkestrin ifasını yüksək qiymətləndirdi və təşəkkürünü bildirdi. Yaradıcı heyətə fəxri fərmanlar və diplomlar təqdim etdi.

**- 8 Noyabr Qələbəsindən sonra orkestr daha çox hansı əsəri, musiqini və marşı səsləndirir?**

- Daima dövlət başçısının və Müdafiə Nazirliyinin rəhbərliyinin diqqəti, qayğısı ilə əhatə olunan Əlahiddə Nümunəvi Hərbi Orkestr yüksək inkişaf yolu keçərək, bu gün düşmən üzərində parlaq qələbəmizi tərənnüm edən möhtəşəm "Zəfər" marşını dünyaya çatdırır. Hərb musiqimizin Cıdır düzündə Cəngi sədaları eşidilir.

**- Müsahibəyə görə çox sağ olun.**

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin Şərqi Aralıq dənizində "Kurtaran-2022" hərbi təlimləri başlayıb



Türkiyənin Şərqi Aralıq dənizində "Kurtaran-2022" hərbi təlimləri başlayıb.

Bununla bağlı Türkiyənin Milli Müdafiə Nazirliyinin rəsmi tviter hesabında bildirilib.

Təlimlərə 12 ölkədən 26 müşahidəçi qatılıb. Müşahidəçi ölkələr arasında Azərbaycan da var.

Mayın 27-dək davam edəcək təlimlərə Aksaz Dəniz Baza Komandanlığında müşahidəçilərin iştirakı ilə keçirilən brifinqlə start verilib.

Təlimlərə Türkiyənin yeddi gəmisi, üç sualtı gəmisi, bir təyyarə, iki helikopter, bir pilotsuz uçuş aparatı (İHA), iki sahil mühafizə qayığı və polis axtarış-xilasetmə briqadasının əməkdaşları cəlb olunublar.

Təlimlər dəniz altında axtarış-xilasetmə tədbirlərinin gücləndirilməsi məqsədi daşıyır.

## İran ordusunun zabiti qətlə yetirilib



İran İslam İnqilabı Keşikçiləri Korpusunun (Sepah) polkovniki Həsən Səyyad Xudayari yaşadığı evin yaxınlığında güllələnərək qətlə yetirilib.

Qatillər şəxsi avtomobilinin sükanı arxasında olan polkovnikə motosikletlə yaxınlaşaraq atəş açıblar. Beş güllə yarası alan Sepahın zabiti yerindəcə ölüb.

Təcili olaraq hadisə yerinə polis və xüsusi xidmət orqanlarının nümayəndələri gəliblər. Hazırda araşdırma aparılır. Cinayətkarların axtarışı üçün təxirəsalınmaz əməliyyat başlayıb.

İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Səid Xətibzadə baş verən qətlə münasibət bildirib. O deyib ki, bu qətl hadisəsi terror aksiyasıdır. Onun sözlərinə görə, bu aksiya insanlığa zidd olan dəhşətli cinayətdir.

## Ukraynada hərbi vəziyyət və səfərbərlik daha 90 gün uzadılıb



Ukrayna Ali Radasının bu gün keçirilən iclasında "Ukraynada hərbi vəziyyətin uzadılması haqqında" və "Ümumi səfərbərlik müddətinin uzadılması haqqında" Prezident fərmanları təsdiqlənib.

Sənədlərə əsasən, Ukraynada hərbi vəziyyət və səfərbərlik daha 90 gün müddətinə - avqustun 23-dək uzadılıb.

Ukrayna Ali Radasının deputatları 320 səslə fərmanları təsdiqləyib.

## Yaponiya ABŞ ilə hərbi əməkdaşlığı gücləndirir



Mayın 20-də ABŞ Hərbi Dəniz Qüvvələrinin "Ronald Reagan" aviadaşıyıcı gəmisi Yokosuka bazasını tərk edərək ətraf akvatoriyada növbə çəkməyə çıxıb.

Bu barədə Kyodo agentliyi məlumat yayıb.

Məlumatda ABŞ-ın "Abraham Lincoln" atom aviadaşıyıcı gəmisinin mayın 21-də Yokosuka bazasına daxil olacağı da bildirilir. Görünən odur ki, Yaponiya KXDR ətrafında vəziyyət və Çinin regionda artan fəallığı fonunda ABŞ ilə hərbi əməkdaşlığı gücləndirir.

Xatırladaq ki, ötən ay ABŞ Hərbi Dəniz Qüvvələrinin zərbə qrupu "Abraham Lincoln" aviadaşıyıcı gəmisi və Yaponiyanın özünümüdafiə qüvvələri ilə birlikdə Şərqi-Çin və Yapon dənizlərində 10 gün ərzində böyük miqyasda hərbi təlimlər keçirib.

**AZƏRTAC-ın materialları əsasında**

*Asudə vaxt*

## Asudə vaxt əsgərlərin dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir



Asudə vaxt dedikdə, təkcə istirahət və bayram günləri nəzərdə tutulmur. Təsdiq edilmiş gündün nizam qaydasına uyğun olaraq əsgərlər müəyyən vaxtlarda idmanla məşğul olur, hərəkətli və ya intellektual oyunlar oynayırlar. Asudə vaxtın düzgün təşkili gənclərin fiziki, psixoloji və şəxsi keyfiyyətlərinin formalaşmasına və inkişafına kömək etməklə yanaşı, onların dünyagörüşünün artırılmasında mühüm əhəmiyyət kəsb edir.

"N" hərbi hissəsində günün nizam qaydasına uyğun olaraq şəxsi heyətin asudə vaxtının təşkili prosesi ilə yaxından tanış olduq. Müasir standartlara uyğun formalaşdırılan ideoloji otaqda əsgərlərin səmərəli zaman keçirməsi, mütaliə ilə məşğul olması üçün lazımi şərait yaradılıb. Burada Azərbaycan dövlətinin rəmzləri, tarixi, Azərbaycan Ordusunun inkişaf mərhələləri, Hərbi and, ümummilli lider Heydər Əliyevin portreti, dövlət və ordu quruculuğu sahəsində fəaliyyəti, Ali Baş Komandanın və müdafiə nazirinin əsgərlərlə görüşlərini əks etdirən fotoşəkillər göz oxşayırdı. Həmçinin hərbi hissənin Vətən müharibəsində apardığı döyüş əməliyyatları barədə məlumatlar da öz əksini tapıb. Bunların hamısı əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, vətənpərvərlik hissinin və döyüş ruhunun artırılmasında mühüm rol oynayır.

Yaradılan şərait əsgərlərin mənəvi cəhətdən kamilləşməsinə də kömək edir. Onlar voleybol, futbol, stolüstü oyunlar oynayır, televiziya və qəzet vasitəsilə məlumatlar alır, müxtəlif mövzularda kitablar oxuyurlar. Dahilərin, dünyagörmüş insanların zaman haqqında fikirlərini unutmayan əsgərlərimiz asudə vaxtlarını düzgün qiymətləndirərək mütaliə ilə məşğuldurlar.

Vətən müdafiəçilərimizin asudə vaxtlarının səmərəli təşkili nizam-intizamlarına və vətənpərvərlik ruhunda tərbiyə olunmalarına müsbət təsir edir.

Əsgər Vüsal Məmmədov və Nazim Məmmədov arasında dama oyununda gərgin mübarizəni izlədik. Hər biri təmkinlə və ehtiyatla oynayırdı. Yalnız cüzi fərqlə Vüsal rəqibinə qalib gəldi.

Əsgər Ziya Sadıqov və Qismət Məmmədli isə güclərini şahmatda sınadılar. Gərgin mübarizə şəraitində keçən oyunda Qismət rəqibini geridə qoydu. Biz də qələbə münasibətilə onu təbrik etdik. Əsgər Q.Məmmədli ilə söhbətimiz zamanı bildirdi ki, şahmatı atasından öyrənib. Qələbə qazanmağı sevdiyini deyən əsgər, "Azərbaycan əsgərinə daim qələbələr yaraşar", deyir. Vətən müharibəsində olduğu kimi.

Əsgər Eltun Mehrəliyev və Məhəmmədəli Mirzəyev bədii kitablar oxuyaraq biliklərini zənginləşdirir və dünyagörüşlərini artırırlar. Vətən müdafiəçiləri yaradılan şəraitdən razı olduqlarını, rəşadətli Azərbaycan Ordusunun sıralarında xidmət etdikləri üçün qürur duyduqlarını bildirdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

## Hərbi liseydə yüngül atletika üzrə yarış keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Əfqan Hüseynovun xatirəsinə həsr olunan yüngül atletika üzrə yarış keçirilib.*



Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Proqrama uyğun olaraq kursantlar 100 və 2400 metr məsafəyə qaçış, hündürlüyə və uzununa tullanma üzrə birincilikdə güclərini sınayıblar.

Yekunda qaliblərə kubok və diplomlar təqdim edilib.

*Nümunəvi xidmət*

## "Hərbi formanı daşımaqdan qürur duyuram"



Vətən müharibəsi tarixi zəfərimizlə başa çatdı. Bu zəfər hər bir azərbaycanlını qürurlandırdı, ordumuzun qüdrətinə və gücünə inamını daha da artırdı. Bir daha əmin olduq ki, Azərbaycan əsgəri istənilən an qarşıya qoyulan tapşırıqların öhdəsindən uğurla gəlməyə qadirdir. Bunun əsas səbəblərindən biri də "Mən azərbaycanlıyam!" deyən, azərbaycanlı olmağı ilə fəxr edən, Vətəninə və xalqına sədaqətlə bağlı olan əsgərlərimizin ordu sıralarında xidmət etməsidir. Belə əsgərlərdən biri də nümunəvi xidməti ilə fərqlənən əsgər Ağalar Cavadzadədir.

Həmsöhbət olduğumuz zaman öyrənirəm ki, Ağaların xidmətinin xeyli hissəsi geridə qalıb. Rusiya Federasiyasının Moskva şəhərində bakalavr və magistr təhsili alan Ağalar ali təhsilini başa vurduqdan sonra Vətən qarşısında borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb. İlk gündən özünü bacarıqlı əsgər kimi göstərib. Qısa müddət ərzində nümunəvi xidməti ilə həm komandirlərinin, həm də əsgər dostlarının rəğbətini qazanıb. Məşğələ və təlimlərdə fəal iştirak edərək hərbin sirlərinə dərindən yiyələnib.

"Hərbi formanı daşımaqdan qürur duyuram", - deyə əsgər Ağalar Cavadzadə söhbətə başladı. - Mən həmişə arzu etmişəm ki, əsgər olub, doğma Vətənimə övladlıq borcumu yerinə yetirim. Qürbət ölkədə təhsil aldığım müddətdə Vətənə qayıdıb əsgər olacağım günü səbirsizliklə gözləyirdim. Düşünürəm ki, doğma torpaqlarımızın müdafiəsində olmaqdan şərəfli heç nə ola bilməz. Hərb sənəti ilə maraqlandığım üçün dərs və məşğələlərdə hərbi biliklə-ri mənimsəmək çətin olmadı. Təcrübəli və savadlı komandirlərimizin sayəsində qısa vaxt ərzində sıra, döyüş, fiziki və atəş hazırlıqlarını mükəmməl mənimsədim. Xidmətimi hər gün daha da həvəslə davam etdirirəm.

Qalib ordunun əsgəri olmağın sevincini yaşadığını deyən Ağalar Vətən müharibəsində qazanılan qələbədən söz açdı: "Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edən bilməsəm də, ruhən döyüşənlərin sırasındaydım. 44 günlük Vətən müharibəsində qazanılan böyük qələbə ilə Azərbaycan Ordusu nəyə qadir olduğunu sübut etdi. Ordumuzun gücü qarşısında tab gətirə bilməyən düşmən məğlub oldu. Ali Baş Komandanın sərkərdəliyi ilə ordumuz uzun illər davam edən işğala son qoydu. Sevinirəm ki, Azərbaycanımızın güclü ordusu var və mən də bu ordunun əsgəriyəm".

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

### Azərbaycan atıcısı Ruslan Lunyov Qranada Qran-Pri turnirində qızıl medal qazanıb



İspaniyanın Qranada şəhərində Beynəlxalq Atıcılıq İdman Federasiyasının Qran-Pri yarışının ilk qaliblərindən biri atletimiz Ruslan Lunyov olub.

Təmsilçimiz 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada qalib gələrək qızıl medal qazanıb.

Azərbaycanlı atlet 26 ən güclü atıcı arasında fərqlənməyə nail olub.

Tüfəng, tapança və stend atıcılığı üzrə yarışlarda 37 ölkədən 250-dən çox idmançı medallar uğrunda mübarizə aparacaq.

### Bədii gimnastlarımız Polşada 4 medal qazanıblar



Polşada "IV Qdınyanın bədii gimnastika ulduzları-2022" adlı beynəlxalq turnir keçirilib.

Qdınya şəhərində təşkil olunan yarışda ölkəmizi yığma komandamızın böyüklərdən ibarət ikinci heyəti (qrup hərəkətləri üzrə və fərdi gimnastlar) təmsil edib. Təmsilçilərimiz uğurla çıxış edərək 4 medala sahib olublar.

Fidan Yusifzadə, Səkinə İbrahimbəyli, Nərgiz Ramazanova, Zəhra Paşazadə, Nigar Xankişiyeva, Leyla Əliyevadan ibarət qrup hərəkətləri üzrə yığmamızın üzvləri çoxnövçülük proqramında və 5 halqa ilə hərəkətlərdə qızıl, 3 lent və 2 topla hərəkətlərin icrasına görə isə gümüş medal qazanıblar. Fərdi növdə isə komandamızın üzvü Alina Gözəlova topla hərəkətlərdə fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.

### Olimpiya çempionumuz Radik İsayev Avropa çempionatında bürünc medal qazanıb



Mayın 22-də Böyük Britaniyanın Mançester şəhərində təşkil olunan taekvondo üzrə Avropa çempionatına yekun vurulub.

Yarışın sonuncu günündə Azərbaycan taekvondoçusu Radik İsayev (87 kq-dan yuxarı) dayanq üzərinə çıxıb.

"Rio-2016" Yay Olimpiya Oyunlarının qalibi olan Radik İsayev dörddəbir finalda Cem Ünlüsoya (Almaniya) 9:1 hesabı ilə qalib gələrək, yarımfinala yüksəlib. Finalın bir addımlığında türkiyəli Emre Ateşliyə məğlub olan (7:8) taekvondoçumuz Avropa çempionatında bürünc medal qazanıb.

Həmçinin Azərbaycanın bir parataekvondoçusu da qüvvəsini sınayıb. Sadiq Həmidovun (63 kq) ilk rəqibi özbəkistanlı Zuxriddin Toxirov olub. Özbək idmançı qadağan olunmuş baş zərbəsinə görə yarışdan uzaqlaşdırılıb və qələbə təmsilçimizə verilib. Yarımfinala adlayan Sadiq italiyalı Antonino Bossoloya məğlub (6:19) olaraq yarışın bürünc medalına sahib olub.

### "Chessable Masters": Şəhriyar Məmmədyarov dörddəbir finala vəsiqə qazanıb



Şahmat üzrə "Champions Chess Tour" onlayn seriyasının dördüncü mərhələsi olan "Chessable Masters" yarışında ilkin mərhələnin son oyunları keçirilib. Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov Cons Gevane (İngiltərə), David Guizarro (İspaniya) və Dinq Liren (Çin) ilə keçirdiyi hər üç görüşünü heç-heçə ilə başa vurub. Ötən 15 turda 22 xal toplayan şahmatçımız dörddəbir finala vəsiqə qazanıb.

Mayın 26-dək davam edəcək turnirin mükafat fondu 210 min ABŞ dollarıdır.

**AZƏRTAC-ın**
**materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Hüsniyyə İDRİSOVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 638 Nüsxə 4673 |